**UOT: 1(091); 929** **Səh.(58-64)**
**DOİ: https://doi.org/10.59849/2219-7370.2025.33.58**

## "MƏŞHUR XATUNLAR"DAKI ŞEYXALAR- QADIN ŞEYXLƏR

**Sevinc Rəhnulla,**
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu
Türk dünyası əlyazmalarının tədqiqi şöbəsinin
böyük elmi işçisi
e-mail: sevindj.rahnulla@mail.ru
https://orcid.org/0000-0002-4395-5806

**Xülasə**

İdil-Ural müsəlmanlarının oyanış dövrünün ən böyük alimlərindən biri də bölgənin milli tarixi və mətbuatının inkişafında böyük xidmətləri və çoxsaylı əsərləri ilə Rusiya müsəlmanlarının həyatında dərin izlər buraxan alim, tarixçi, maarifçi, maarifpərvər, jurnalist Rzaəddin bin Fəxrəddindir.
1897-ci ildən başalayaraq müxtəlif əsərləri nəşr olunmağa başladı. 50-dən çox din, əxlaq, tədris, biblioqrafik, tarixi əsərlərin müəllifidir. Rzaəddin bin Fəxrəddinin qələmə aldığı dəyərli əsərlərdən biri də "Məşhur xatunlar" əsəridir. 1904-cü ildə çapdan çıxmış tarixi materiallarla zəngin olan kitabda Yaxın Şərqin tarixində, mədəniyyətində müəyyən rol oynamış hökmdar, şair, pedaqoq, ədib, mühəddis (hədis rəvayət edən), müəllif, mühərrir, səyahət edən, bahadır və sair ünvanlarla məhşur olan xanımlar haqqında çox maraqlı məlumatlar əks olunmuşdurü. Müəllif kitabın əvvəlində qeyd edir ki, onu qızı Zeynəb üçün yazmışdır. Kitab ərəb əlifbası ilə kazan tatarları türkcəsində yazılmışdır.
**Açar sözlər:** Rzaəddin bin Fəxrəddin; qadın şeyxlər; məşhur xanımlar

## SHEIKHAS- FEMALE SHEIKHAS IN "FAMOUS WOMEN"

**Sevinj Rahnulla,**
Institute of Manuscripts named after Muhammad Fuzuli, ANAS
Department of Research of Manuscripts of the Turkic World,
Senior Researcher
e-mail: sevindj.rahnulla@mail.ru
https://orcid.org/0000-0002-4395-5806

**Summary**

Rzaeddin bin Fakhraddin was one of the great scientists of the period of revival of the Muslims lived in the İdel-Ural State. He was a historian, enlightener and journalist deeply influenced on the muslims' lives lived in the territories of Russia. Different works written by Rzaeddin bin Fakhraddin began to be published from 1897. He is an author of more than 50 works covering religion, ethics, education, bibliography and history. One of his valuable works is named "Famous dames". Rich in historical materials, this work was published in 1904. The work deals with the very interesting information about the famous dames known as queens, poets, pedagogues, writers, narrators of hadiths, authors, travellers, heros and etc. who played special roles in the history and culture of the Near East. The author of the work noted in his book that he had written this book for his daughter

Zeynab. The book was written with the Arabic script in the Turkish language spoken by the Tatars of Kazan.
This article provides information about women who have risen to the rank of Sheikh.
**Keywords**: Rizaeddin bin Fakhreddin, sheikh women, famous ladies

## ШЕЙХИ В «ЗНАМЕНИТЫХ ЖЕНЩИНАХ» — ЖЕНЩИНЫ-ШЕЙХИ

**Севиндж Рахнулла,**
Институт рукописей имени Мухаммада Физули НАНА
Отдел Исследования рукописей Тюркского мира
старший научный сотрудник
e-mail: sevindj.rahnulla@mail.ru
https://orcid.org/0000-0002-4395-5806

**Аннотация**

Ризаэддин бин Фахраддин — один из самых выдающихся ученых мусульманского мира эпохи Возрождения, живший в Идель-Уральском государстве. Муфтий и писатель, биограф и толкователь преданий, он был поистине многогранной личностью, оказавшей значительное влияние на жизнь мусульман, проживавших в России. С 1897 года начали публиковаться его труды, среди которых более 50 работ по религии, этике, образованию, библиографии и истории. Особое место среди них занимает книга «Знаменитые женщины», изданная в 1904 году и насыщенная ценными историческими материалами. В ней содержатся сведения о выдающихся женщинах правительницах, поэтессах, педагогах, писательницах, рассказчицах хадисов, путешественницах и других, сыгравших важную роль в истории и культуре Ближнего Востока. Автор посвятил эту книгу своей дочери Зейнаб. Произведение написано арабской графикой на тюркском языке, на котором говорили татары Казани. В статье уделено внимание женщинам, достигшим звания шейха.
**Ключевые слова:** Ризаэддин бин Фахреддин, женщины-шейхи, известные дамы

## GİRİŞ

Rusiya müsəlmanlarının həyatında dərin izlər buraxan, bulqar-tatar müsəlmanlarının oyanış dövrünün ən boüyük alimlərindən, bölgənin milli tarixi və mətbuatının inkişafında böyük xidmətləri və saysız əsərləri ilə tanınan tarixçi, maarifpərvər, jurnalist Rzaəddin bin Fəxrəddin 12 yanvar 1859-cu ildə Tatarıstanın Əlməd rayonundan 12 km. məsafədə olan Bügülme mahalının Küçiçat kəndində dünyaya gəlmişdir. İlk təhsilini indiki Leninaqorskda olan Silçeli kəndində almış, 1889-cu ildə İlbek kəndində imamalıq və müəllimlik etmişdir. O, 1891-ci ildə Orenburq Ruhani İdarəsinə qazi seçildi, elə həmin il də axundluq rütbəsi alaraq Ufaya köçdü.[6; 7]



Onun dünyagörüşü, islahatçi fikirləri 1888-ci ildə Peterburqda görüşdüyü tatar nəqşbəndi sufi alimi, filosof, tarixçi, şərqşünas, müəllim Şihabəddin Mərcaninin əsərləri və mütəmadi olaraq məktublaşdığı İsmayıl bəy Qasprinskinin "Tərcüman" qəzetinin təsiri altında formalaşmışdır.

Rzaəddin bin Fəxrəddinin 1897-ci ildən başalayaraq müxtəlif əsərləri nəşr olunmağa başlamış, 50-dən çox din, əxlaq, tədris, biblioqrafik, tarixi əsərlərin müəllifi olmuşdur. Bunlaradan Asar, İbn Rüşd, Əbu Əla əl-Məərri, İbn Qəzzali, İbn Teymiyyə, İbn Ərabi, Bolqar və kazan türkləri, Altunorda xanları, Kazan xanları, Kitab ül-etibar, Tərbiyəli bala, Tətbiyəli xatun, Tərbiyəli ana, Tərbiyəli ata yainki qiraəti türki, Rusiya müsəlmanlarının ehtiyacları və onlar haqqında intiqad", "Din və ictimai məsəslələr", "Ailə", "Nəsihət" və başqalarını göstərmək olar (8, 70-71). O, 1906-cı ildən qazılıqdan istefa verərək "Şura" qəzetinin nəşrinə başladı, bir çox qəzet və jurnallarda məqalələr çap etdirdi. 1918-ci ildən yenidən qazı, 1922-ci ildən isə müfti seçildi. Müftilik məqamında böyük maddi sıxıntılar içərisində yaşayaraq 12 aprel 1936-cı ildə vəfat etmişdir. Onun Rusiya Elmlər Akademiyası Ufa Elmi Mərkəzinin Elmi arxivində hər biri 600 vərəqdən ibarət 40 əlyazma əsərləri qorunub saxlanılır.

XX əsrin əvvəllərində Rusiya imperiyasında türk xalqlarının azadlığı, təhsili və maariflənməsi uğrunda mübarizə aparan ziyalılardan biri də Rzaəddin ibn Fəxrəddin olmuşdur. Böyük türk alimi Ziya Göyalp "Türkçülüyün əsaları" və Nadir Dövlətin Ankarada dəfələrlə çapdan çıxmış "Rusiya türklərinin milli mücadilə tarixi" adlı məhşur əsərlərində "şimal türkləri" arasında yetişmiş vətənpərvər ziyalılar sırasında Rzaəddinin bin Fəxrədinin həyat və fəaliyyətini xüsusi yer ayırmışlar (11;12;13).

Tarix boyu ictimai və siyasi həyatda müəyyən mövqe tutmuş qadınlar bir çox şifahi və yazılı abidələrdə: Məhəmməd Zehni Əfəndinin "Məşahir ün-nisa", Məhəmmədhəsən xan Etimadüssəltənənin "Xeyrati-hesan" (3), Bəhriyyə Uçokun "Müsəlman dövlətlərində qadın-hökmdarlar" (9) və başqa əsərlərdə yaşayırlar. Rzaəddin bin Fəxrəddinin qələmə aldığı belə dəyərli əsərlərdən biri də "Məhşur xatunlar" əsəridir. 1904-cü ildə çapdan çıxmış tarixi materiallarla zəngin olan kitabda Yaxın Şərqin tarixində, mədəniyyətində müəyyən rol oynamış hökmdar, şair, pedaqoq, ədib, mühəddis (hədis rəvayət edən), müəllif, mühərrir (yazıçı), səyahət edən, bahadır və sair ünvanlarla məşhur olan xanımlar haqqında çox maraqlı məlumatlar əks olunmuşdur. Müəllif kitabın əvvəlində qeyd edir ki, onu qızı Zeynəb üçün yazmışdır. Kitab ərəb əlifbası ilə Kazan tatarları türkcəsində yazılmışdır. Kitab adların ərəb əlifabasına əsasən sıralanması ilə təqdim olunmuşdur. Bu məqalədə kitabda haqqında məlumat verilən şeyxa -şeyx qadınlar haqqında məlumat veriləcək.

İslam tarixindən bir çox qadın xanəgahları məlumdur. Onların ən məşhuru Fatimə Raziyənin (521/1127-ci ildə olub) ribatı idi. Qahirədə Bint əl-Bağdadiyyə adı ilə tanınan Zeynəb bint Əbül-Bərəkət adlı qadın - şeyx və onun ardıcılları üçün əl-Məlik əz-Zahir Baybarsın qızının 684/1285-ci ildə inşa etdirdiyi əl-Bağdadiyyə ribatı fəaliyyət göstərirdi.. Qadınlara məxsus xanəgahlar kişi xanəgahları ilə müqayisədə geniş yayılmasalar və məşhur olmasalar da hər halda onların orta əsrlər boyunca, hətta indiyədək fəaliyyət göstərməsi danılmaz faktdır. Məhz bu səbəbdən bəzi tədqiqatçılar kişi və qadın sufi məskənlərini bir-birindən fərqləndirməmiş, onları müxtəlif adlarla adlandırmışlar. Məsələn, əl-İrbili kişi iqamətgahları üçün "xanəgah", qadın iqamətgahları üçün isə "ribat" terminlərindən istifadə etmişdir (10, s.43).

Orta əsrlərdə ayrıca qadın xanəgahlarının fəaliyyət göstərməsi ilə yanaşı, bir sıra yerlərdə kişilərə mənsub xanəgahların üzvü, yaxud da tərəfdarı, təəssübkeşi olan qadınlar da olmuşlar.

Məşhur sufi şeyxlərindən ibn-Ərəbinin mürşidlərindən biri qadın olmuşdur (2).

Təsəvvüfün yarandığı və təşəkkül tapdığı ilk dövrlərdə onun sufilikdə böyük şöhrət qazanmış Rabiə əl-Ədəviyyə kimi məşhur nümayəndəsi olmuşdur. Rabiə əl-Ədəviyyəni ilk sufilər içərisində Həsən Bəsridən sonra ikinci tanınmış şəxsiyyət, ilk və ən böyük sufi qadın kimi səciyyələndirən K.Bünyadzadə onu Bəsrinin ideyalarını davam etdirməklə bərabər həm də ilk dəfə ilahi sevgi fikrini irəli sürən sufi kimi xarakterizə edir (1, s.36-37). "Ya Rəbbim! Sənə cəhənnəm qorxusu ilə ibadət edirəmsə, təni cəhənnəmdə yandır. Sənə cənnət ümidi ilə ibadət edirəmsə, cənnəti mənə haram qıl. Əgər Sənə Sənin üçün ibadət edirəmsə daima Özünü mənə göstər" deyən bu bəsrəli qadın sufi təliminin banilərindən və ən görkəmli nümayəndələrindən biridir (5, s. 90).

Fəzlullah Nəimi, daha sonra isə İmadəddin Nəsimi bu xanımı özlərinin "qərinəvi qədim ustadı" hesab edirdilər. Rabiə haqqında çoxlu hekayələr və şeirlər mövcuddur ki, bunlar onun mənəvi səviyyəsinin yüksəkliyini göstərir (4).

## ƏSƏRDƏKİ ŞEYXA –ŞEYX QADINLAR

**Rabia Əl-Ədəviyyə -** Bəsrə şəhərində İsmayıl Əl-Bəsri adlı birinin Ummul Xayr künyəsi və Tac Ər-Rical ləqəbi ilə tanınan qızıdır. O həm də zahidlik və iffətlə məşhur olan bir xanım idi. Hikmətli sözləri, təsirli moizələri rəvayət olunur. Arvadı vəfat etdikdən sonra Həsən Bəsri tərəfindən həyat yoldaşı olamağa istənilmişsə də razılıq verməmişdir. Böyük müctəhidlərdən olan Süfyan Əbu Abdullah bin Səid bin Məsruq bin Həbib bin Rafi Əs-Səvri həzrətlri ilə söhbət etmişdir. Bəzi şeirləri söylənilir. 135-ci ildə (bir rəvayətə görə isə 185-ci ild vəfat etmişdir. Qəbri Bəsrədədir. Onun Məryəm Əl-Bəsriyyə adı ilə tanınan dindar bir xadiməsi olmuşdur.

İslam tarixinin ən məşhur sufi qadınlarından biri olan Rabiə əl-Ədəviyyənin.(717-801) həyat və fəaliyyətinə Azərbaycan da maraq çoxdur. "Eşq" məfhumunu sufi ədəbiyyatına gətirən Rabia Allaha sevgi və bağlılığın dərinliyi ilə seçilirdi.

**Təzkare Pay Xatun** Misir padşahlarından Məlik Zahir Baybarsın qızıdır. Atasının vəfatından səkkiz il sonra 684- cü ildə Qahirədə xanımlara məxsus olan bir tərbiyəxana inşa etdirmiş və ona "Ribate Bağdadiyye" adı verərək Binti Bağdadiyye idarəçiliyinə tapşırdı. Bu xanegah (təzkiyə) yalnız zikir və ibadətə məxsus deyildi. Hər çür din və axirət elmindən dərs verilməkdə olan bir Darülfünun (elm evi) idi. Ərləri tərəfindən daş-qalaq edilmiş, dul qalmış, yaxud iddə (şəriət qanunlarına görə təkrar nikaha daxil olmağı qadağan edən müddət) içində olan xanımlar da qəbul edilməklə tərbiyələnir, dünya və axirət bacarıqlarından və elmlərindən çox şeylər öyrədilirdi. İdarəçiliyi fövqəladə intizamlı olub, tələbələr və müəllimlər, nəzarətə xidmət edənlər haqqında olan tərtib və qaydalar heyranedici idi. Tərbiyəxananın bütün əhalisi bir şeyxin idarəsinə tabe idi. Şeyxin elmdə tam məharətli və yaxşı xasiyyətinin üstün olması, tədrisə və idarəetməyə iqtidarlı olması əsas şərt idi. Bundan başqa, xüsusi dərslərdən əlavə ümumi moizələr edilir, müəyyən vaxtlarda moizə kürsülərində vaizlər tərəfindən nəsihətlər söylənilirdi. Belə bir faydalı tərbiyəxana bir səbəbə görə 806-cı ildə fdəaliyyəti dayandırıldı və bir daha açılmadı. (Bizlərə ibrət! Xanımlar üçün bir vaizəməz olmadığı halda çöxusunu əxlaqsızlığa öyrətdik. Bir dərs evi və bir tərbiyə evimiz olmadığı halda məşhur şəhərlərin hamısında dəlixanalar açamağa yetişdik. Vay bizim halımıza, vay?! .........) Təzkare Pay xatun isə atası tərəfindən himmətli, xeyirxah, elm əhlini himayə edən bir xatun idi.

**Zeynül-Arab -** Tacəddin Əbdürrəhman bin Ömər bin Həsən bin Abdullah Əs-Sələmi Əd-Dəməşqinin Binti Əl-Cüveyrani adlanan tanınan qızıdır. Əbdülmünim Əl-Fəzarinin hədis elmində olan "Əl-Ərbəunə əs-Səbayat" adlı kitabını şeyx Tacəddin Əl-Qurtubinin yanında öyrənmiş, sonra özü bir-neçə dəfə təkrar oxumuşdur. Hədis alimləri olan Ezz bin Əbdüləziz Əl-Ərdəbili, Hafiz Səxavi məşhur qadın hədis alimi Kərimə kimi şəxslərdən icazat (rəsmi sənəd) almışdır. Yaddaşı çox güçlü olub, ömrünü tədris ilə keçirdi. Təqribən 628-ci ildə anadan olmuş, zəmanəsinin alimlərindən olan Kamal bin Əl-Ümadəyə ərə getdi. İbn Əl-Umadə isə 658-ci ildə vəfat edəndə dul qalmış, başqa birinə ərə getmədi. Həcce-şərifə ziyarətə getmiş, Məkkeyi Mükərrəmidə xidmət göstərərək "Şeyxiyyə Rabat Əl-Hərəmeyn" oldu. Səksən yaşına yaxın, 704-cü ildə vəfat etmişdir.

**Bilqeys** - Məhəmməd Bədrəddin bin Sıracəddin Əl-Bəlqinin qızıdır. Elm və fəzilət mərtəbəsi yüksək olduğundan ömrünün on ildən çoxunu sufilikdə olmuş ,"Şeyxa" ləqəbi ilə şöhrət tapmışdır. Altmış yaşında 841- ci ildə vəfat etmişdir. Babası olan Siracəddin İbn Həcər Əl-Əsqalani həzrətlərinin ustadı idi.

**Fatimə -** Şətitə binti Əbil Qasim Əli bin Əhməd bin Əli bin Yəsir. Əbu Hüreyrə ibn Əz-Zəhəbi, Şəhab Əbu Əl-Əbbas Əhməd bin Məhəmməd bin Osman Əl-Xəlili və başqalarından icazat almış, hədis dərsi verdi. İmam Siyutinin şeyxasıdr.

**Məryəm binti Əhməd -** Əhməd bin Əbi Bəkr Məhəmməd bin İbrahim Əl-Dəməşqinin

qızı, Şeyx Məhəmməd bin Əbi Əl-Əttarın həyat yoldaşıdır. Elm və fəziləti böyük və hənəfi məzhəbində tanınmış bir şeyx idi. Dövrünün fəqihlərindən olan Məhəmməd bin Əbdülməlik bin Osman Əl-Müqəddəsi məclisindən ayrılmaz olmuşdur. İmam Kaşğari və İbn Qubeyti kimi mötəbər şəxslərdən icazat almışdır. Səlahəddin Əl-Safədi ustadı olan Elməddin Əl-Bərzali "Fəvaidi Əbi Əl-Bərzalidən"Fəvaid Əbi Arubəti əl-Hərrani"adlı kitabını ondan öyrənmişdir. 86 yaşında ikən 805-ci ildə cumadi ül-əvvəl ayının13-də vəfat etmişdir.

**Xədicə -** Mühəddis Şəhabəddin Əhməd bin Əbdüləziz bin Bədran Əl-Hüseynin qızı Ummu Səlmədir. Hədis elmində şöhrəti yüksək olmuş, imam Siyuti həzrətlərinin şeyxasıdır. 798-ci ildə anadan olmuşdur.

**Zeynəb** binti İsmayıl məşhur mühəddis İbn Əd-Daim və başqalarının şağirdi olmuşdur. Məsnədətu Əş-Şam Əmətu Əl-Əzizin şeyxasıdir. 90 yaşında- 750- ci ildə vəfat etmişdir.

**Fatimə** -Ummu Yusif binti Məhəmməd bin Əbdülhadi bin Əbdülhəmid Şam və Salihiyyədə (Suriya yaxınlığı) hədis tədris etdi. Mühəddis Haccardan tədris alıb, Əbu Nəsr Şirazi və başqalarından icazat aldı. İbn Hacərin şeyxiyyəsidir.

**Əlif -** Bu isimdə iki məşhur mühəddisə olmuş, hər ikisi imam Siyuti şeyxalarıdır. Birinin şərife nisabı Hisamədiin Həsən qızı olmuş, hədis elmini Lətifə binti Əl Əmasi, Aişə binti Əş-Şərayhi və Məhəmməd bin Məhəmməd Əl-Mühib və başqalarından almışdır.

**Əlif** -İkincisi Hənbəli məzhəbində tanınmiş alimlərdən olan Əl-Camal Əbdullah bin Əli Əl-Asqalani Əl-Kinanın qızıdır. Onun Ummu Əbdullah Nişvan və yaxud Sude adlı bacısı da səkkizinci əsr mühəddislərindən olmuş, imam Siyutinin ustadı idi.

**Hənifə** - Əbdürrahman bin Əhməd Əl-Qmnin qızıdır. Elm və fəzilət ilə şöhrəti ; xüsusən elm və hədisdə tayı-bərabəri yox idi. Mühəddis Kamal bin Xayr və başqalarından icazə almışdır. İmam Siyuti həzrətlərinin şeyxasıdır.

**Məleykə binti Əş-Şərəf -** Əbdüllah bin Əl-İz İbrahim bin Əbdüllah Əl-Müqəddəsinin qızıdır. Məşhur mühəddislərdən biri olmuş, Mühəddis Hicar, Məhəmməd bin Əl-Fəxr Əl-Buxari, (Zeynəb binti Əl-Kamal), Əbu Bəkr Ər-Razi məclislərinə çağırılmış, sonra özü İbn Şirazi, İbn Asakir, İbn Səid, İshaq Əl-Amadi kimi böyük alimlərdən icazat (diplom) almışdır. Çox vaxt Hədis elmindən dərs vermişdir. 80 yaşında 802-ci ildə vəfat etmişdir. Bu xanım İbn Hacər Əl-Asqalaninin şeyxasıdır.

**Xədicə binti Nuveyra**- Əbdürrahman bin Əli bin Əhmədin qızıdır. Adına Səidə də deyilirdi. Siyutinin şeyxalarından olmuş, hədis alimi bir qadın idi. Hədis elmində çoxlu alimlərdən icazatı vardır. 797-ci ildə Məkkeyi Mükərrəmidə doğulub, 870-ci ildə vəfat etmişdir.

**Xədicə Əş-Şahcaniyyə -**Bağdadlı bir vaizə (moizə edən, nəsihət verən) edən xanlmdır. 387-ci ildə vəfat edən İbn Səmun Əbu Əl-Hüseyn Məhəmməd bin Əhməddən təhsil almış və həmin ustatdan gözəl yazı öyrənmiş, sürətli yazmaqda məharəti çox imiş.

**Fatimə bint Abbas -** Abbas bin Əbilfəth Əl-Bağdadinin qızı Ummu Zeynəbdir. Alimə, dindar, çalışqan, fiqh elminin bilicisi, salehə bir xanım olmuş, dünyadan kəfəni miqdarında qənaət edən bir qadın olmuşdur. "Ribate Bağdadiyyənin" ən məşhur şeyxalarından olmuuş, xanımlara vəz söylər, elm öyrədər, bəzi zamanlar camieyi şərifin minbərinə çıxıb kişilərə də nəsihət edərdi. Minbərə çıxmağını İbn Teymiyyə rəhmətullah həzrətləri qadağan etmək istəmişdirsə, sonra nə üçünsə susmuşdur. Dövründə olan ən mötəbər alimlər ilə elmi mübahisələr etmişdir. Bir dəfə məşhur alimlərdən olan Sədrəddin ibn Əl-Vəkil ilə mübahisə edib, onu məğlub etmişdir. 80 yaşında 714-cü ildə zilhəccə ayında Misirdə vəfat edmişdir.

**Xədicə-** Nişapur qazısı Məhəmməd bin Əhməd Fəqih Əbu Rəca Əl-Cürcaninin qızıdır. Fiqh elmini atasından öyrənmiş, alim, fazil bir xanım olmuşdur. Yüz yaşında -372- ci ildə dünyadan köçmüşdür.

**Xədicə -** Şafei məzhəbindən fəqihə İbn Əl-Mülqan Əli Əl-Ənsarinin nəvəsi olan Şeyx Nurəddinin qızıdır. O, artıq fiqh və hədis elmlərində yetkin kamal sahibi bir şəxs olmuşdur. Hədis alimi Əbu Əl-Yəminin dərslərinə gedib, ozündən isə imam Siyuti bəhrələnmişdir. 788-ci ildə dünyaya gəlmişdir. Salehə adlı bacısı da böyük bir hədis alimi olaraq 82 yaşında 786- cı ildə vəfat etmişdir.

**Zeynəb Əd-Dəməşqiyyə -** İbn Əl-Asidə adı ilə tanınan Məhəmməd bin Osman bin Əbdürrəhmanın qızıdır. Aydın danışıqlı, gözəl simalı, yumşaq qəlbli bir xanım olub hədisdən başqa fiqh elmində də bilikləri mənimsəmişdir. Dərs zamanı ətrafındakı dairəyə düzülmüş camaatın sayı heç vaxt əlli nəfərdən az olmazdı. Hafiz ibn Hicr həzrətlərinin ustadı idi. 110 yaşından , 799-cu ildə vəfat etdi.

**Sittul Vüzəra -** Qazı Şəmsəddin Ömər bin Əsəd bin Əl-Muncanın qızı Ummu Əbdüllahdır. Sittul Umənanın atası olan Əsəd, onun əmisi oğlu idi. Mötəbər mühəddis qadınlardan və Sittul Füqaha kimi uzun ömürlülərdən olmuş, hədis elmində zəmanəsinin əlçatmaz səviyyəsində olanlardan biri idi. Alim, arif bir xanım olub əsil vətəni olan Dəməşq, Şamda və bir vaxtlar Misirdə tədrislə məşğul olmuşdur. Buxariye Şərifi təkrar oxudub xətm etmiş, iki dəfə həcce-şərifdə olmuş, dörd dəfə ərə gedib, üç qızı olmuşdur. Dördüncü əri Nəcməddin Əbdürrahman bin Əş-Şirazi olmuşdur. Səfidinin ustadı olan Zəhbi, İmam Şafei həzrətlərinin Müsnədini ondan öyrənmiuş, Misirdə ondan Əmir Seyfəddin Ərğun ilə Qazı Kərimənddinin dərslərində iştirak etməklə oinun şagirdi olmuşdur. Hədis alimi İbn Muhib, Qazi Fəxrəddin Əl-Misri, şeyx Səlahəddin Əl-Adi kimi böyük alimlər onun şagirdlərindəndir. Əhməd bin Hənbəlin məzhəbində idi. 93 yaşında ikən 717- ci ildə rəhmətə getmişdir.

**Aişə Əl-Bauniyyə -** Yusif bin Əhməd bin Nəsr Əl-Bauni qızı Ummu Abdulvahabdır. “Fazilət Ül-zaman” ləğəbi ilə məşhur olmuşdur. Həqiqətən zamanın fəzilətlisidir. İslam şairələrinin ən məşhurlarından olduğu halda, başqa elmlərdə də bacarığı var idi. Seyyid ü-Ənbiya, Fəxr ül Mürsəlin (s.) əfəndimiz həzrətlərini mədh edərək “Əl Fəth ül-mubin fi mədh il-əmin” (Əminin aydın fəthin mədhi) adlı məşhur bir bəlağətli qəsidəsi vardır. Özü də bu qəsidəyə şərh yazıb elm və ədəb cəhətdən də bacarığını ortaya qoymuşdur. Məşhur bəlağətli qəsidəsi şərhi ilə bərabər 1304- cü ildə Qahirədə və “Mövludun Nəbi” adlı risaləsi 1302- ci ildə Dəməşqdə çap olundu. Fiqh fənnində olan bilikləri kamil olduğu bəzi əsərlərindən anlaşılır ki, Cəmal Əl-Haqq və Əd-Din İsmayıl Əl-Hurani, Əllamə Mühiyəddin Urməvi və başqaları onun ustadları olmuşlar.. Əsrinin əlləməsi olan Şeyx Əbdülğəni Ən-Nəblusi həzrətləri onu mədh və tərif etmişlər. 922-ci ildə vəfat etmişdir.

**Ummu İsa** –(8, 114-115 ) İmam İbrahim bin İshaq Hərbinin qızıdır. Fiqhdə qüdrət sahibi olub,elmi etimadlıdır, camaata fətva verirdi. 328- ci ildə vəfat etmişdir.

**Əmətul Vahid -** Qazı Hüseyn bin İsmayıl əl-Məhməlinin qızı, qazı Əbülhüseyn Əl-Məhmələnin anası Sittitədir. Qurani Kərimi əzbərləməklə bərabər şafei fiqhində dərin biliyi malik olmuşdur. Şafei alimlərinin içərisində məşhur olan Əbu Ali bin Əbi Hərirə ilə birlikdə fətva verirdi. 379-cu ildə rəhmətə getmişdir.

**Binte Bağdadiyyə** - Hicri tarixi ilə VII əsrdə Bağdadda zühur edən Zeynəb Əbi Bərəkatdır. Alim, zahid olub, xanımlara vəz və nəsihət söylər, fiqh və ədəb təlim edərdi. Misir padşahlarından Məlik Zahir Baybursun qızı Təzkare Pay xanım onun üçün Ribate Bağdadiyyə adlı xənəgah -tikdirmişdir.

*Bu ribat indiyədək əd-Darb əl-Əsfərdə fəaliyyət göstərir* (10, s.43-44).

**Nəticə**

İslam dini təşəkkül tapandan günümüzədək ömrünü bu ilahi dinin inkişafına, təbliğinə, sevilməsinə həsr edən, şeyxa mərtəbəsinə yüksəlmiş qadınlar çox olmuşlar. Sufi qadınlar erkən İslam dövrlərindən etibarən mistik təriqətlərin tərkib hissəsi olmuşlar. Onlar özlərini Allaha həsr edərək mənəvi təmizlik, paklıq, sevgi və təmənnasızlıq kimi prinsiplərlə yaşayırdılar.

Bu məqalədə yalnız Məşhur xatunlar əsərində tərrcümeyi-halı verilmiş bir sıra Şeyxa xanımlar araşdırılmışdır.

**İstifadə olunmuş ədəbiyyat:**


1. Bünyadzadə K. Təsəvvüf fəlsəfəsinin ilk mənbələri. Sərrac Tiusi. Əl-lümə. Bakı: Qamma-Servis, 2003, 232 s.
2. Bünyadzadə K. Təmkinli, sərxoş və xəta eləmiş dərvişlər //Azadlıq, 1 iyun 2004
3. Marağalı Məhəmmədhəsən xan Etimadüssəltənə Xeyrati-hesan (Gözəllər sərvəti) / fars dilindən tərcümə edən, ön sözün müəllifi T.Həsənzadə. Bakı: Nurlan, 2003, 103 s
4. Səfərli H. . Naxçıvanda qadın sufilər // Dirçəliş-XXI əsr. – 2006/2007. - №106-107. S. 414-419
5. Dikici R. Böyük övliyalar. Bakı: Vətən, 1993, 128 s.
6. Erul B. Tatar Alimlerden Rýzaeddin B. Fahreddin (1859-1936) ve Hadisçiliği / Ankara Üniversitesi İlahiyat Fakültesi Dergisi ( AÜÝFD XLVI (2005), sayý II, s. 55-105
7. Rızaeddin Fahreddin – Vikipedi https://tr.wikipedia.org/wiki/Rızaeddin_Fahreddin
8. TDV İslâm Ansiklopedisi, 1997, 16 c.
9. Учок Б. Женщины-правительницы в мусульманских государствах./ Переводчик - З.Буниятов. М., «Наука», 1982, 176 с.)
10. Тримингем Дж. Суфийские ордены в исламе. М.: Гелиос, 2002, 480 с.
11. Nadir Devlet - Rusya Türklerinin Milli Mücadele Tarihi ... https://www.sozcukitabevi.com › Tarih › Araştırma
12. Kitap Rusya Türklerinin Milli Mücadele Tarihi - Seçkin ... https://www.seckin.com.tr/.../rusya-turklerinin-milli-mucadel...
13. Devlet, N. (1999). Rusya Türklerinin Milli Mücadele Tarihi ...www.academia.edu/.../Devlet_N._1999_._Rusya_Türklerinin_Milli_Mücadele_Tarihi_19


**Rəyçi:** Nailə Süleymanova
İlahiyyat üzrə fəlsəfə doktoru

**Göndərilib: 08.07.2025** **Qəbul edilib: 22.07.2025**